BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2014*

**UOT 94 (479.24)**

# ŞİMALİ AZƏRBAYCAN İQTİSADİYYATINDA KREDİT SİSTEMİ VƏ RUSİYA DÖVLƏT BANKININ BAKI ŞÖBƏSİNİN YARADILMASI (XIX əsrin sonları)

**Ş.Ü.HƏSƏNOV**
***AMEA-nın Tarix İnstitutu***
***sahmar5377@mail.ru***

*Məqalədə XIX əsrin sonlarında Şimali Azərbaycan iqtisadiyyatında kredit sisteminin inkişafına əngəl törədən sələmçi kapitalının daha yüksək faizlə kredit verilməsi məsələsi işıqlandırılır və belə bir şəraitdə Şimali Azərbaycanda Rusiya Dövlət bankının Bakı şöbəsinin yaradılması və onun bank kapitalının inkişafındakı rolunun mahiyyətinin izahı verilir. Rusiya Dövlət bankının Bakı şöbəsi sənayeçiləri və tacirləri daha münasib şərtləri olan kreditlə təmin etmişdir ki, bu da Şimali Azərbaycan iqtisadiyyatında kredit sisteminin inkişafına səbəb olmuşdur.*

**Açar sözlər:** bank, sənaye, sələmçi, tacir, ticarət

XIX əsrin ikinci yarısında Şimali Azərbaycan iqtisadiyyatının kredit sistemində bank kapitalı ilə yanaşı olaraq, sələmçi kapitalının da mövcud olması sənayenin müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarların və alqı-satqı əməliyyatları ilə məşğul olan tacirlərin daha münasib şərtlərlə kredit əldə etmələrinə əngəl törədirdi. Belə bir şəraitdə Rusya Dövlət Bankının Bakı şöbəsinin yaradılması Şimali Azərbaycan iqtisadiyyatının kredit sistemində daha əlverişli şərtlərlə kreditin əldə olunmasına səbəb oldu və bank kapitalı ilə sənaye kapitalının qovuşması prosesində böyük rol oynadı.

XIX əsrin 70-ci illərindən etibarən Şimali Azərbaycanın iqtisadiyyatında neft sənayesinin inkişafı və onun xüsusi çəkisinin artması bu sahənin nəinki böyük iqtisadi əhəmiyyətə malik olduğunu göstərir, həm də iri kapital qoyuluşlarını tələb edirdi. Kreditə olan tələbat neft sənayeçilərini onun əldə olunması işi ilə ciddi surətdə məşğul olmağa vadar etdi. Xüsusilə, neftin satışına tətbiq olunan aksiz vergisi ilə bağlı olaraq kapitalist kreditinə olan tələbat daha çox hiss olunurdu. Qaydaya görə, aksiz vergisi ağ neftin satışa buraxılmasına qədər olan müddətdə ödənildiyi üçün neft sənayeçilərini kredit mənbələrini

axtarmaq zəruriliyi qarşısında qoydu. Yerli vəsaitlərin olmaması, kreditə olan kəskin tələbat neft sənayeçilərini Bakıda bank müəssisələrini açmağa müvəffəq olmağa vadar etdi [1, 6-7].

Bundan başqa, kapitalist münasibətlərinin inkişafı ilə bağlı olaraq, istehsal olunan malların tacirlərin əlindən keçən hissəsinin çoxalması kredit ticarətinin inkişafını zəruri edirdi. Yəni istehsal olunan bütün mallar alqı-satqı əməliyyatına daxil olur və istehlakçıya tacirlər vasitəsilə çatdırılırdı ki, bu da kredit ticarətinə böyük tələbat yaradırdı. 1872-ci ildə Bakı neft sənayesində iltizam sisteminin ləğv olunmasından sonra sahibkarlıq fəaliyyəti geniş miqyas aldığına görə ticarətə kredit buraxan ayrı-ayrı şəxslər mövcud tələbi ödəyə bilmirdilər. Ticarət-sənaye dairələrinin çox çətinliklə aldıqları kreditin əvəzində ödədikləri faizin miqdarı əksər hallarda 18-ə çatırdı [2, 148-149].

Kredit müəssisələrinin olmaması şəraitində xırda əmtəə istehsalçıları, zavod sahibkarları və tacirlər çox ağır şərtlərlə sələmçi kapitalından asılı vəziyyətə düşürdülər. Pul vəsaitinə malik olan sələmçilər aparıcı fiqur olmaqla, həm çələmçi, həm də bankir rolunda çıxış edirdilər. Ölkədəki əmtəə-pul münasibətlərinin zəif inkişafı, pul vəsaitinin məhdud olması sələmçiyə toplanan faizlə yüksək hesab qoyuluşunu öz əlində saxlamağa imkan verirdi. XIX əsrin 60-70-ci illərində Şimali Azərbaycan şəhərlərində sələmçi krediti illik olaraq 36 %-ə bərabər idi [3, 38-39].

Ümumiyyətlə, XIX əsrdə sələmçi kapitalı Rusiyaya nisbətən Cənubi Qafqazda daha geniş yayılmışdı. Bunun əsas səbəbi o idi ki, Cənubi Qafqaz kapitalizmin inkişafının səviyyəsinə görə Rusiyadan geridə qalırdı. Cənubi Qafqazda kəndli islahatından sonra feodalizmin qalıqları daha da qabarıq xarakter almağa başladı. Cənubi Qafqazda kapitalist krediti Rusiyaya nisbətən gec yaranmışdı [4, 6].

Artıq XIX əsrin 60-cı illərindən başlayaraq daha çox geridə qalmış bəzi ucqarlardan fərqli olaraq Şimali Azərbaycan kəndlərində sənaye kapitalizminin ilk mənbələri yaranır, pul-əmtəə münasibətləri inkişaf edirdi [1, 208]. İmperiya qanunlarına görə, Azərbaycan kəndlərində 1879-cu ilə qədər sələmçi faizinin məbləği 6 %-ə bərabər idi. 1879-cu ildən 1893-cü ilə qədər bu qanunun fəaliyyətdə olması dayandırıldı. Yalnız 24 may 1893-cü il qanununa müvafiq olaraq 12 %-lik sələmçi maksimumu tətbiq olundu ki, bu da əvvəlki kimi kənd təsərrüfatı məhsullarının predmetinə deyil, ancaq pul istiqraz vərəqələrinə şamil olundu. Lakin bu qanun faktiki olaraq, formal xarakterə malik idi və iqtisadiyyatın bütün sahələrində bununla kifayətlənirdilər [5, 185-186].

Azərbaycanın dövlət kəndlərində sələmçilikdən və sələmçilərdən danışarkən, belə bir fikir ortaya çıxır ki, ticarət kapitalının nümayəndələri olan möhtəkirlər, daha doğrusu, ticarət kapitalının özü sələmçiliklə sıx bağlı idi. İkincisi, qolçomaqlar çox vaxt iri möhtəkirlərin və ya kəndlərdəki firmaların agentlərinə xidmət edirdilər. Nəhayət, digər bir fərziyyə ondan ibarətdir ki, kifayət qədər varlı olan kəndlilər və başqaları müəyyən vəsaitəyə malik olsalar da, faiz müqabilində kəndlilərə ssudaların verilməsi yolu ilə öz gəlirlərini

artırmağa səy göstərirdilər [5, 188].

Ə.S.Sumbatzadə öz əsərində P.Q.Konduralova istinad edərək göstərir ki, bağ sahibi heç bir yerdən pul əldə edə bilməyərək məcbur olub bütün məhsulunu ya çox ucuz qiymətə möhtəkirə satır, ya da möhtəkirdən çox böyük faiz müqabilində pul götürürdü. Eyni zamanda, bağ sahibi göstərilən müddətdə kapitalı faizlə natura şəklində ödəməli idi. Başqa sözlə desək, əvvəlcədən şərtləşdirilmiş kimi, olduqca aşağı qiymətə üzüm şirəsi və ya çaxır ilə ödəməli idi. Nəticədə çaxırın qiymətinin qalxdığı zaman bağ sahibi çaxırı öz kreditoruna yeni qiymət ilə deyil, sövdələşmədə nəzərdə tutulan qiymətlə verməyə məcbur olurdu ki, burada da zərər çəkən tərəf bağ sahibi, varlanan tərəf isə möhtəkir olurdu [6, 313-314].

Ə.Ə.Umayev öz avtoreferatında 1888-ci il mənbəsinə istinad edərək göstərir ki, möhtəkirlər tərəfindən geniş tətbiq olunmuş avansların verilməsi sistemi xırda bağ sahiblərinin ağır borclara məruz qalmalarına və onların əmək məhsulunun olduqca aşağı qiymətə satılmasına səbəb olurdu. Möhtəkirlər tərəfindən üzümçülük və şərabçılıq rayonlarında tətbiq olunan istiqrazlar da kəndlilərin iflasa uğramalarına səbəb olurdu. Bu zaman kəndli öz borcunu pul ilə deyil, üzüm və ya çaxır ilə ödəməyə borclu olurdu ki, bu da onun iflasa uğramasına səbəb olurdu [7, 7].

Şimali Azərbaycanın pambıqçılıq rayonlarında da oxşar vəziyyət hökm sürürdü. Çiyidli pambıqdan başqa heç bir kənd təsərrüfatı məhsulu özünə çoxlu sayda vasitəçiləri cəlb edə bilmirdi. Ə.Ə.Umayev öz avtoreferatında kimliyini göstərmədiyi mütəxəssislərdən birinə istinad edərək göstərir ki, Cənubi Qafqazın pambıq işində vasitəçilərin sayının artması, pambıqçılıq sahəsinin özünün inkişafına nisbətən daha sürətlə baş verirdi. Möhtəkirlərin geniş ordusunun tərkibinə Rusiyanın müxtəlif sənaye firmalarının komissionerləri, yerli və gəlmə xırda tacirlər, kiçik pambıqtəmizləmə zavodlarının agentləri və başqaları daxil idilər [7, 9].

Vergi və mükəlləfiyyətlərin ağırlığı, təsərrüfat ehtiyaclarının və şəxsi tələbatlarının ödənilməsi üçün kəndlilər pul, kredit axtarmaq məcburiyyətində qalırdılar. Cənubi Qafqazda istiqraz almağa təkcə yoxsul kəndlilər deyil, həmçinin ortabablar da müraciət etməyə məcbur olurdular. Şimali Azərbaycanda kredit müəssisələrinin və dövlət ssudalarının olmaması şəraitində kəndlilər hər şeydən əvvəl öz təsərrüfat və şəxsi ehtiyaclarını ödəmək üçün ssudaya görə sələmçiyə, tacirə və dükançıya müraciət etməyə məcbur olurdular ki, bunun nəticəsində də onların amansız istismarının obyektinə çevrilirdilər [7, 6].

Rusiya Dövlət bankı ucqarlarda kredit müəssisələrinin yaranmasında maraqlı idi. Dövlət bankının qarşısında pul və kredit sisteminin nizama salınması kimi böyük vəzifələr dururdu. Bundan başqa onun vəzifələrinə Rusiyada olduğu kimi, ucqarlarda da öz şöbələrini açmaq daxil idi. Təşkil olunan şöbələr ucqarlardan kapitalı çəkib gətirərək Dövlət bankının ehtiyaclarını təmin etmək funksiyalarını yerinə yetirirdilər [1, 7]. Bundan başqa, yerli vəsaitin olmaması, kreditə olan kəskin tələbat neft sənayeçilərini tez bir zamanda bank müəs-

sislərinin açılmnasına müvəffəq olmağa vadar edirdi [1, 208-209].

Yuxarıda göstərilənlərə müvafiq olaraq 1874-cü il iyunun 1-dən etibarən Bakıda Rusiya Dövlət bankının şöbəsi fəaliyyət göstərməyə başladı ki [8, 253], bu da sənayeçilərin və tacirlərin öz maliyyə əməliyyatlarını həyata keçirmək üçün mühüm vasitə oldu [1, 8].

Öz fəaliyyətinə 1860-cı il iyunun 1-dən başlayan Rusiya Dövlət bankı Rusiya kapitalist kredit sisteminin ilk bankı kimi mövcud olmuşdur. Əgər məhdud sayda olan şəhər ictimai banklarını nəzərə almasaq, o zaman ilk kommersiya banklarının yaranmasının tarixi 1863-1864-cü illərə şamil olunur. Onların daha geniş şəkildə təsis olunması dövrü isə 1870-1873-cü illərə aiddir. Buna görə də yalnız XIX əsrin 70-ci illərinin əvvəllərində ölkənin kommersiya bankları sistemində (səhmdar, qarşılıqlı ictimai kredit və şəhər bankları) Dövlət bankının xüsusi mövqeyi müəyyənləşmiş və özünün mövcud olduğu bütün illər ərzində ölkənin iri və əsas kommersiya bankı rolunu qoruyub saxlamışdır [9, 84].

Rusiya Dövlət bankının Bakı şöbəsinin əsas fəaliyyət dairəsini kredit və əmanət-ssuda yoldaşlıq cəmiyyətlərinin qeydiyyatı və onlara xidmət, veksel əməliyyatlarının aparılması, Şamaxı, Quba və sairə xəzinədarlıqları ilə bank əməliyyatlarının aparılması, poçt-teleqraf idarələri və əmanət kassaları ilə maliyyə məsələlərinin həlli, əmanət-ssuda yoldaşlıq cəmiyyətlərində təftişlərin aparılması və sairə təşkil edirdi [10, 96].

Yerli ticarət-sənaye dairələrinin kreditlə təchiz olunması veksellərin uçotu və sənədli əmlakların girov qoyulması ilə ssudaların verilməsi əməliyyatları ilə icra olunurdu. Daha çox inkişaf etmiş əməliyyat veksellərin uçot edilməsi idi [3, 41].

1879-cu ilə qədər Bakı şəhərində ticarətə kredit yalnız qarşılıqlı kredit cəmiyyəti tərəfindən buraxılırdı. 1879-cu ildə Dövlət bankının idarə heyəti tərəfindən ilk dəfə olaraq Bakı şöbəsinə veksel uçot etdirmək üçün 300 min rubl məbləğində pul ayrılması barədə sərəncam verildi. Həmin məbləğin qısa müddət ərzində sərf olunub qurtarması onu göstərdi ki, şəhərin ticarət-sənaye dairələrinin kreditə olan tələbatı çox böyükdür. Bakıda neft sənayesinin sürətli inkişafı Dövlət bankının şöbəsində veksellərin uçot edilməsi üçün ayrılan məbləğin artırılmasını tələb edirdi. Həmin dövrdə Bakı şəhərində yalnız istehsal olunub satışa buraxılan neft məhsullarının illik dövriyyəsi 15,3 milyon rubldan yuxarı idi. Buna müvafiq olaraq şəhərin ticarət-sənaye dairəsinin kreditə olan ehtiyacını ödəmək üçün Dövlət bankının şöbəsində veksel uçotu üçün ayrılan pulun miqdarı 1882-ci ildə 500 minə, 1884-cü ilin ortalarında 800 minə, 1888-ci ilin iyulunda 1 milyon rubla, 1888-ci ilin oktyabrında isə 1,5 milyon rubla bərabər oldu. Artıq 1889-cu ildə Dövlət bankının şöbəsində uçota alınan veksellərin məbləği 2,3 milyon rubla çatmışdı [2, 153-154].

Ümumiyyətlə, XIX əsrin 90-cı illərində Bakının kredit müəssisələrinin veksel uçotu əməliyyatı xeyli genişlənmişdi. 1897-ci ildə dörd kredit müəssisəsində - Dövlət bankının şöbəsi, Qarşılıqlı kredit cəmiyyəti, Tiflis kom-

mersiya bankının şöbəsi və Volqa-Kama kommersiya bankının şöbəsində uçot edilən veksellərin məbləği 21.621 min rubl təşkil edirdi. 1899-cu ildə təkcə Dövlət bankının şöbəsində uçot və təkrar uçota alınan veksellərin məbləği 17.038 min rubla bərabər idi [2, 154].

Bir məqamı da vurğulayaq ki, kapitalın təmərküzləşməsi və neft sənayesində inhisarlaşmanın baş verməsi xırda və orta neft sənayeçilərinin mövqelərinə mənfi təsir göstərirdi. Hətta kommersiya banklarının verdikləri ssudalardan da daha çox iri neft sənayeçiləri yararlanırdılar. Aşağıda bəhs edəcəyimiz fakt bunu bir daha təsdiq edir.

"Nobel qardaşları" şirkətinin Rusiya Dövlət bankı qarşısında qaldırdığı 24 mart 1886-cı il tarixli vəsatətdə aşağıdakılar bildirilirdi: "ssudaların alınması üçün ağ neftin girov qoyulması müqabilində bizim özəl banklar elə məbləğ verirlər ki, həmin məbləğ heç ağ neftin Bakıdan satış yerinə daşınması üçün də tələb olunan xərci ödəmir. Neft sənayeçilərinin narazılığına səbəb olan belə bir ağır şəraitin yaranmasının səbəbi rəqabətdən doğur ki, bunun nəticəsində də xırda zavod sahibkarları və kustarlar iri neft sənayeçiləri ilə ayaqlaşa bilmirlər" [11, 666].

"Nobel qardaşları" şirkətinin yuxarıda göstərilən vəsatətinə müvafiq olaraq Dövlət bankının İdarəsi tərəfindən maliyyə naziri N.X.Bunqeyə ünvanlanan 8 aprel 1886-cı il tarixli təqdimatda Dövlət bankında və onun əyalət müəssisələrində ssudaların verilməsi müqabilində ağ neft məhsulunun girov kimi əmtəə məhsulları siyahısına daxil edilməsində heç bir maneçiliyin olmadığı bildirilirdi [11, 74-75]. Dövlət bankı İdarəsinin bu təqdimatı maliyyə naziri tərəfindən təsdiq olundu [11, 666].

Dövlət bankının 19 aprel 1893-cü il tarixli əmrinə müvafiq olaraq bankın əyalətlərdəki kontorlarına və şöbələrinə, torpaq sahibkarlarına 24 yanvar 1884-cü il Qanunu əsasında solo-veksellərin girovu müqabilində ssudaların verilməsinə görə faizlərin tutulmasının məbləğinin ildə 4,5 % miqdarında tətbiq olunması barədə göstəriş verildi [12, v.200].

Beləliklə, XIX əsrin sonlarında Rusiya Dövlət bankının Bakı şöbəsinin açılması sənayeçilərə və tacirlərə daha münasib şərtlərlə kreditin əldə olunmasına imkan yaratdı və sələmçi kapitalının tədricən aradan sıxışdırılıb çıxarılması prosesini sürətləndirdi. Şimali Azərbaycan iqtisadiyyatında kapitalist münasibətlərinin özünün ən yüksək inkişaf mərhələləsinə daxil olduğu bir dövrdə Rusiya Dövlət bankının Bakı şöbəsinin yaradılması mühüm iqtisadi əhəmiyyətə malik idi. Digər kommersiya banklarının Bakı şöbələri ilə yanaşı olaraq, Dövlət bankının Bakı şöbəsinin də Şimali Azərbaycan iqtisadiyyatının kredit sisteminin inkişafındakı fəaliyyəti bank kapitalının inkişafına səbəb olmuş, onun sənaye kapitalı ilə qovuşması prosesini sürətləndirmişdir.

## ƏDƏBİYYAT

1. Касумова А.М. Кредитно-банковские учреждения Азербайджана (1874-1932 г.г.): Дис…. канд. экон. наук. Баку: 1969, 223 с.
2. Musayev M.Ə. XIX əsrin sonlarında Bakı şəhərinin ticarəti (1883-1900-cü illər). Bakı: Elm, 1972, 194 s.
3. Умаев А.А., Касумова А.М. Роль банковского и ростовщического капитала в экономическом развитии дореволюционного Азербайджана // Материалы по экономической истории Азербайджана (к V Международному Конгрессу Экономической истории). Под редакцией академика АН Азербаджанской ССР А.С.Сумбатзаде. Баку: Элм, 1970, с. 38-46.
4. Адонц М.А. Характерные черты и особенности генезиса капитализма в Закавказье // Генезис капитализма в Закавказье (тезисы докладов и научных сообщений). Баку: Академиz Наук Азербайджанской ССР, 1969, с. 3-11.
5. Гасанов Г. Из истории Североазербайджанской деревни в конце XIX – начале XX вв. Баку: Тахсил, 2007, 224 с.
6. Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX веке. Баку: Академия Наук Азербайджанской ССР, 1958, 364 с.
7. Умаев А.А. Проникновение капитала в сельское хозяйство Азербайджана (виноградство и хлопководство) 1883-1914 гг. Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. Баку: Академия Наук Азербайджанской ССР, 1965, 36 с.
8. Azərbaycan tarixi. 7 cilddə. IV c. (XIX əsr). Bakı: Elm, 2000, 508 s.
9. Гиндин И.Ф. Государственный банк и экономическая политика царского правительства (1861-1892 годы). М.: Госфиниздат, 1960, 416 с.
10. Musayev A.F., Vəliyev N.N., Quliyev A.S. Qiymətli kağızlar bazarı. Bakı: Səda, 1999, 324 s.
11. Монополистический капитал в нефтяной промышленности России (1883-1914). Документы и материалы. М-Л.: Академия Наук СССР, 1961, 795 с.
12. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f. 229, s.1, iş 4.

## КРЕДИТНАЯ СИСТЕМА В ЭКОНОМИКЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА И СОЗДАНИЕ ФИЛИАЛА РОССИЙСКОГО ГОСУДАРСТВЕННОГО БАНКА (конец XIX века)

**Ш.У.ГАСАНОВ**

**РЕЗЮМЕ**

В статье освещается вопрос предоставления кредитов под большие проценты ростовщическим капиталом, создающим, препятствие развитию кредитной системы в экономике Азербайджана в конце XIX века и комментируются суть создания филиала Российского Государственного Банка и его роль в развитии банковского капитала в этих условиях. Бакинский отдел Российского Государственного Банка обеспечивал промышленников и купцов кредитами на более выгодных условиях, что способствовало развитию кредитной системы экономики Северного Азербайджана.

**Ключевые слова**: банк, промышленность, ростовщик, купец, торговля

**THE CREDIT SYSTEM IN THE ECONOMY OF NORTHERN AZERBAIJAN AND THE CREATION OF BAKU BRANCH OF RUSSIAN STATE BANK**
**(at the end of the XIX century)**

**Sh.U.HASANOV**

**SUMMARY**

The paper enlightens the problems of giving high rate credits that hampered the development of the credit system in the economy of Northern Azerbaijan at the end of the XIX century and comments on the establishment of Baku branch of Russian State Bank in Northern Azerbaijan and its role in the development of the bank capital. Baku branch of Russian State Bank created such affordable conditions for industrialists and merchants that it led to the development of the credit system of the economy in Northern Azerbaijan.

**Key words**: bank, industry, usurer, merchant, trade